2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkiləri ilə əlaqədar vətəndaşlar Hacıyev Səfa Sovet oğlu və Abbasov Sahib İbrahim oğlunun 24 dekabr 2009-cu il tarixli 97 saylı müraciətinə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının

Q Ə R A R I

2009-cu il dekabrın 23-də keçirilmiş bələdiyyə seçkilərində Ağcabədi rayon sakinləri Hacıyev Səfa Sovet oğlu və Abbasov Sahib İbrahim oğlu 24 dekabr 2009-cu il tarixində Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına yazılı müraciət daxil olmuşdur.

Müraciət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112 və 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın tələblərinə uyğun olaraq Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası nəzdində ekspert qrupunun üzvü tərəfindən nəzərdən keçirərək, bu barədə müvafiq rəy verilmiş və Mərkəzi Seçki Komissiyasının iclasında baxılmışdır.

Daxil olmuş müraciət nəzərdən keçirilərkən müəyyən olunmuşdur ki, müraciətdə tələb aydın göstərilməmişdir və bu səbəbdən də ekspert qrupunun üzvü şikayətin geri qaytarılması barədə rəy vermişdir.

Belə ki, yuxarıda göstərilən Təlimatın 7.1-ci bəndinə əsasən seçki komissiyaları tərəfindən şikayət qeydə alındıqdan və baxılması üçün ekspertə təqdim edildikdən sonra ekspert həmin müraciətin ilkin olaraq nəzərədən keçirir. Bu zaman ekspert müraciətin Seçki Məcəlləsi və Təlimatla müəyyən edilmiş qaydaların pozulması ilə daxil olduğunu aşkar etdikdə, bu barədə qrup koordinatorunu məlumatlandırmaqla, şikayətin onu təqdim edən şəxsə geri göndərilməsinə dair rəy verməlidir.

Müraciətlərə dair ümumi tələblər "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 2-ci bəndində müəyyən olunmuşdur. Həmin Təlimatın 2.1.9-cu bəndinə görə, müraciətdə şikayətçinin tələbi göstərilməlidir. Habelə Təlimatın 2.5-ci bəndinə əsasən əgər tələb yoxdursa və bu səbəbdən tələb aydın deyilsə, müraciət onu göndərən şəxsə geri qaytarılmalıdır. Ona görə də, müraciətdə tələb aydın olmadığından, müraciət mahiyyəti üzrə araşdırılmadan geri qaytarılmalıdır.

Yuxarıda göstərilənləri əsas götürərək, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında" Təlimatın 1.1-ci, 2.1.9-cu, 2.5-ci, 4.1.2-ci və 7.1-ci bəndlərinə əsasən **q ə r a r a a l ı r :**

1. Vətəndaşlar Hacıyev Səfa Sovet oğlunun və Abbasov Sahib İbrahim oğlunun Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına daxil olmuş 97 saylı müraciətində tələb aydın olmadığından, müraciət ərizəçilərə geri göndərilsin.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

Sədr Məzahir Pənahov

Katib Natiq Məmmədov

Üzvlər	Fuad Cavadov
	Ramiz İbrahimov
	Validə Kazımova
	Qabil Orucov
	Tofiq Həsənov
	İlham Məmmədov
	Nizami Nadirov
	Azər Tağıyev
	Tamam Cəfərova
	Rövşən İsmayılov
	Almas Qəhramanlı
	Oktay Hümbətli